# Parisin məkri İrəvanı məhvə sürükləyir

**Prezident İlham Əliyevlə Nikol Paşinyan arasında fevralın 17-də Münxendə keçirilmiş görüş iki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətində müəyyən pozitiv ab-hava yaratmışdı. Lakin bu görüşdən sonra Ermənistan baş nazirinin Fransaya səfəri zamanı verdiyi açıqlamalar sülhün əldə olunması səylərinə zərbə vurdu.**



Həmin vaxt Paşinyan "France 24" telekanalına verdiyi müsahibədə yenidən əsassız iddialar səsləndirərək, guya Azərbaycanın Ermənistana hücuma keçməyə hazırlaşdığını, ölkəmizin beynəlxalq hüququn prinsiplərinə əməl etmədiyini bildirdi. Əslində, Münxen görüşündən sonra Ermənistanın baş naziri iki ölkə arasındakı münasibətlərin normallaşdırılması ilə bağlı nikbin danışmalı idi. Lakin Paşinyan məhz Fransa prezidenti Emmanuel Makronla görüşdən sonra yenidən cəfəng fikirlər söyləyərək sülh prosesinə zərbə vurdu. Başqa cür desək, bu dəfə də sülh prosesi ilə bağlı yaranan əlverişli mühit Fransa prezidentinin təhriki ilə pozuldu.

Ümumiyyətlə, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması ilə bağlı təşəbbüslərin reallaşmasını ölkəmizi ittiham edən müxtəlif bəhanələrlə əngəlləyən Fransanın Münxen görüşündən sonra da prosesi pozmağa çalışacağı gözlənilən idi. Münxendən sonra Paşinyanın Fransanın tələbi ilə dərhal Parisə səfər edərək hesabat verməsi də göstərdi ki, Makron Almaniyada keçirilmiş görüşdən razı qalmayıb və danışıqlar prosesinin müsbət məcraya yönəlməsindən narahatdır. Üstəlik, görünən odur ki, Fransa prezidenti kansler Şoltsun sülh prosesi istiqamətində təşəbbüs göstərməsini qısqanclıqla qarşılayıb və bu, Almaniyanın səylərinə həm Makron, həm də Paşinyan tərəfindən edilən böyük hörmətsizlikdir.

Azərbaycanın Ermənistana qarşı hücuma hazırlaşmasını iddia etmək beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədi daşıyır. Bununla Fransa Azərbaycana qarşı törətməyi planlaşdırdığı hərbi təxribatla əlaqədar öz maraqlarına uyğun informasiya mühiti formalaşdırmağa çalışır. Əlbəttə, Fransa nə etsə belə, öz məkrinə çata bilməyəcək. İlk növbədə Fransanın səmimi olmadığı bütün dünyaya məlumdur.

Digər tərəfdən, Fransanın Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasının qarşısını almaq üçün Ermənistana göstərdiyi hərbi dəstəyi bölgədə qüvvələr balansını dəyişməyəcək. 44 günə Ermənistanı dizüstə qoyan, 23 saata erməni separatizmini darmadağın edən Azərbaycana Fransa və Hindistanın Ermənistana verdiyi texnikanı darmadağın etmək üçün çox qısa bir zaman kifayətdir. Prezident İlham Əliyev bununla bağlı xəbərdarlığını edərək bildirib: "Bizim ordu quruculuğu prosesi davam edəcək və Ermənistan da bilməlidir, o, nə qədər silah alsa da, onlara nə qədər ürəkdirək versələr də, əgər bizə qarşı hər hansı bir təhlükə mənbəyi olsa, biz dərhal o təhlükə mənbəyini məhv edəcəyik. Mən bunu gizlətmirəm ki, sabah heç kim deməsin nəsə gözlənilməz oldu. Qoy eşidən eşitsin ki, biz görsək, bizə qarşı real təhlükə, o Fransanın sınıq-salxaq "Bastion" maşınları, o konserv bankaları yox, real təhlükə yaranса, biz preventiv addımlarla o təhlükəni istənilən nöqtədə məhv edəcəyik".

Fransanın regionda sülhün əldə olunmaması, vəziyyətin gərginləşdirilməsi üçün dəridən-qabıqdan çıxdığı ortadadır. Bu isə məhz Ermənistanın ziyanına olacaq. Çünki Parisin məkri İrəvanı məhvə sürükləyir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



Azərbaycan.- 2024.- 29 fevral, № 46.- S.7.